# İŞĞALDAN AZAD OLMUŞ TORPAQLARDA İPƏKÇİLİYİN BƏRPASI

**Təranə Hacıyeva, Fövzü Poladov, Kənan Məmmədov**

*Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu, haciyeva.t001@gmail.com, fovzupoladov@gmail.com, kananmemmedov@mail.ru*

Azərbaycan ərazilərinin işğaldan azad edilməsi ölkəmizdə ərzaq təhlükəsizliyinin təmininə ciddi töhfə verəcək. Xüsusən də heyvandarlıq məhsulları ilə özünütəminetmə səviyyəsi yaxşılaşacaq. Dövlət başçısı İlham Əliyevin aqrar sektorun inkişafı, yerli istehsalın artırılması, əhalinin məşğulluğunun yüksəldilməsi ilə bağlı tapşırıqlarından biri də bölgələrdə pambıqçılıq və baramaçılığa diqqətin artırılmasıdır.

Məlum olduğu kimi, tut ipəkqurdu monofaqdır, yəni praktiki olaraq yalnız bir bitkinin – tut ağacının yarpağı ilə qidalanıb böyüyür, inkişaf edir və orqanizm üçün lazım olan bütün ehtiyat qida maddələrini yalnız tut yarpağından alır. Odur ki, ipəkçiliyin yem bazası dedikdə hər şeydən əvvəl tut bitkisinin becərilməsini gözümüz önünə gətirir və ondan daha çox və keyfiyyətli yarpaq məhsulu almaq üçün lazımi aqrotexniki tədbirlərin tətbiqini düşünürük.

Tut bitkisinin böyümə və inkişafı torpaqların fiziki-kimyəvi və eləcədə, sortların bioloji xüsusiyyətlərindən sıx surətdə asılıdır. Bitkilər torpaqdakı mənimsənilə bilən qida maddələrindən, eləcədə torpağa verilən gübrələrdən istifadə edir. Torpaqda mənimsənilə bilən qida maddələrinin miqdarı çox olduqda, gübrələrə olan tələbat azalır və əksinə.

Odur ki, tutçuluq sahəsində yeni yaradılmış və rayonlaşdırılmış tut sortlarının məhsuldarlığını qaldırmaq üçün hər biri üçün xüsusi aqrotexnika və gübrələmə qaydaları öyrənilməlidir. Bütün bunları nəzərə alaraq respublika ərazisində rayonlaşdırılaraq geniş yayılmış nəzarət Gözəl-tut olmaqla bir neçə tut sortunun yarpaq məhsuldarlığına və eləcə də onun qidalılığına müxtəlif dozada üzvi və mineral gübrələrin təsirini öyrənmək üçün aşağıdakı sxem üzrə 8 varianda tədqiqat işləri aparılmışdır.

| S.s. | Üzvi və mineral gübrələrin dozaları | Noyabr | Aprel |
|---|---|---|---|
| 1 | Gübrəsiz (nəzarət) | - | - |
| 2 | Peyin 20 t/ha (zəmin) | Zəmin | - |
| 3 | Zəmin + $N_{90}P_{45}K_{45}$ | Zəmin + $P_{45}K_{45}$ | $N_{90}$ |
| 4 | Zəmin + $N_{90}P_{60}K_{60}$ | Zəmin | $N_{90}$ $P_{60}K_{60}$ |
| 5 | Zəmin + $N_{90}P_{60}K_{60}$ | Zəmin + $P_{60}K_{60}$ | $N_{90}$ |
| 6 | Zəmin + $N_{120}P_{60}K_{60}$ | Zəmin + $P_{60}K_{60}$ | $N_{120}$ |
| 7 | Zəmin + $N_{120}P_{90}K_{90}$ | Zəmin + $P_{90}K_{90}$ | $N_{120}$ |
| 8 | Zəmin + $N_{120}P_{90}K_{90}$ | Zəmin | $N_{120}P_{90}K_{90}$ |

Aparılan təcrübədən məlum olmuşdur ki, sınaqdan keçirilən sortlardan Xanlar-tut 1-ci, Emin-tut 2-ci, Firudin-tut isə 3-cü yerdə olmuşdur. Sıxgöz-tut və Kokuso-70 sortlarının məhsuldarlığı aşağı olmuşdur. Xanlar-tut sortundan alınan baramaların keyfiyyəti də yüksək olmuşdur və bunu bir daha baramaların texnoloji göstəriciləri də sübut etmişdir.